Azərbaycan müəllimi – 90

# Milli təhsilimizin salnaməsi



**Dünən Nizami Kino Mərkəzində Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan "Azərbaycan müəllimi" qəzetinin 90 illik yubileyi qeyd edilib.**

Mərasimdə çıxış edən "Azərbaycan müəllimi"nin baş redaktoru Sarvan İbrahimov qəzetin milli mətbuatın inkişafındakı rolundan bəhs edib. O qeyd edib ki, ölkəmizin təhsil salnaməsini yaradan "Azərbaycan müəllimi" 1934-cü il sentyabrın 2-dən "Kommunist maarifi" adı ilə nəşr olunmağa başlayıb. Sonrakı dövrlərdə "Müəllim qəzeti" adı ilə çap olunub. Qəzetin əsas məramı ölkəmizdə xalq maarifinin, təhsilin inkişafına xidmət etmək olub. Qəzetin nəşrində başlıca məqsəd ölkədə maarif işlərinin həyata keçirilməsinə dəstək göstərmək, tədris sahəsində qazanılmış ilk təcrübə və uğurları geniş təbliğ etmək, təhsillə bağlı qarşıda duran vəzifələri gündəmə gətirmək və onların reallaşdırılmasına nail olmaq idi.

Elm və təhsil naziri Emin Əmrullayev vurğulayıb ki, qəzet fəaliyyətinin ilk illərindən ölkənin elm və təhsil sahəsində baş verən yenilikləri, qabaqcıl dünya təcrübəsini oxuculara çatdıran mühüm yayım orqanı kimi kifayət qədər nüfuza malik olub.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxışında "Azərbaycan müəllimi" qəzetinin keçdiyi şərəfli yolu milli mətbuat tariximizin ayrılmaz tərkib hissəsi və qürur mənbəyi kimi dəyərləndirib. Əhməd İsmayılov çıxışında, həmçinin müstəqillik illərində Azərbaycan mətbuatına yaradılan imkanlardan danışıb. Vurğulayıb ki, Ümummilli lider Heydər Əliyevin senzuranın ləğvi kimi tarixi əhəmiyyətli qərarından sonra medianın inkişafı üçün əlverişli şərait yaradıb: "Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm kimi prinsiplər mətbuat və informasiya sahəsində Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsasını təşkil edir.

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, bu qəzet böyük bir epoxanın, dövrün, pedaqoji təhsil həyatımızın salnaməsidir. "Azərbaycan müəllimi" qəzetinin təhsilimizin ən müxtəlif sahələrinin işıqlandırılmasında özünəməxsus rolu var: "Təhsilin geniş bir sahə olduğunu və hər bir ailənin təhsillə bağlılığını nəzərə alsaq, "Azərbaycan müəllimi" qəzetinin önəmini xüsusi qeyd etmək lazımdır. Qəzet təhsilin ən müxtəlif sahələrini əhatə etməklə yanaşı, eyni zamanda, müəllimlərə yol göstərməkdə, praktik kömək etməkdədir".

Digər çıxış edənlər qəzetin missiyasına sadiq qalaraq həm elm və təhsil sahəsində, həm də ictimai həyatda baş vermiş önəmli hadisələri işıqlandırdığını vurğulayıblar.

*XQ*